## OMBADURMA

Vallah, bizdə afçılar “ombadurma” deyərdilər. Ovçu bir silahnan yüz ov vırsa, onun qavağında maral omba durar. Bizim tərəflərdə bir kişi ov vıranda görüf ki, tüfəngi qaldıranda bir zənən, qız xeylağıdı, silahı salanda olur ov, silahı qaldıranda olur zənən xeylağı. Uç dəfə bı minvalla eliyir, baxır ki, yox, bırda bir sirr var. Kişi gətirir silahın basdırır. Onnan indiyənə qədər deyillər ki, hər kimin qavağında ov omba dursa, silahın basdırmasa, silahın qəzəbinə gələr.

Ovçu ovun atmasın,
Ətin tərəziyə qoyub satmasın,
Ovçu sənin isbin- kisbin partlasın,
Bı dağda bir maral yaman ağladı.

*Quliyev Süleyman Murad oğlu, Qubadlı rayonu, Həkərli kəndi.*

***

Hansı avı yüzə kimi vırsan, gərəh ta o avı vırmıyasan. Vırmax istiyəndə dönüb olur məlaykə, göyərçin. Bizim kətdə iki adam avın qanununu pozduxlarına görə cəzalanıflar. Balakişinin əliyini Allah ilana döndərif, vırıf. Biriin də gözü kor oluf, əyağı topal. Ona görə ki, avda əlih gözünə maleykə kimi, qız kimi görünür, bı baxmır, vırır, vırdığına görə də elə olur.

*Əliyev Mirseyib İslam oğlu, 1916, Zəngilan rayonu, Baharlı kəndi, ibtidai təhsilli.*

***

Potubəylidə Ovçu Sədulla vardı, o danışırdı. Deyir, durmuşam ceyran qarooluna ki, indi burdan gəlib gedəcək. Xeylam otdum, deyir. Gördüm ki, bir ceyran gəldi. Gələndə nə hiss elədisə, qayıtdı. Bu qayıdannan soora az çəkmədi, gördüm bir təkə ceyran gəlir. Ayə, mıyı vırım, vırmıyım? Deyir, dedim ki, bu təkədi, mıyı vırmıyım, qoy getsin, mütləq bunun dişisi gələcək, dişisini vıraram. Deyillər, dişisinin əti onnan daddı olur. Xeylam otmuşdum, deyir. Böyründə də Şirməmməd olub, o da kənarda otmuşmuş. Ceyran gəldi, deyir. Ceyranı vırdım, ceyran qalxıb yerə düşəndə, inan, deyir, gözümə qəşəy bir qız xeylağı görükdü. Dedim, ayə Şirməmməd, bu nə hak-hesabdı, bu qız hardan çıxdı, mən mıyı vurdum. Gəldik gördük qız nədi, ceyran vırmışam. Onnan soora o gəldi tüfəyin satdı. Tooba elədi. Dedi, ölüncə mən ceyran ovuna getmərəm.

Əzizəliyev Kişibala, Saatlı rayonu, Əli Soltanlı kəndi